*Qələmini qanına batıran şair*

*Ülvi Bünyadzadəyə*

Sağlığında gəlmədin...
Bilmədim bir şair var -
Qələmini qanına batırıb yazar.
Düzər misralarını "Azad Azərbaycan!" adlı
arzuların dağına.
Qəlbində - Azad Azərbaycan boyda ümid,
Başında - Azad Azərbaycan boyda
içi köz-köz,
üstü tüstülü ocaq,
Ayağında nimdaş ayaqqabı, And içər
Vətənə ki:
Vətənə oğul olacaq!
Sağlığında gəlmədin...
Bilmədiın bir şair var - Nə
şan-şöhrət istəyər, Nə də
qonorar umar.
Gözlərində yetmiş illik şüarların zilləti,
didərginlik əzabı,
Ürəyində - Azad Azərbaycan adlı
məmləkətin sətirləri Ayağında
nimdaş ayaqqabı...
...Qətlin
şerindən tez çatdı cahana,

Qətlin meydan oxudu
Yalançı pəhləvantək Yalan
atını minib
Dünyaya "meydan oxuyan"a.

Şerin açdı qapımı Ağın
qarayla vuruşu,
Bir kəsin min nakəslə savaşı...

hər vərəqində
İlk oxucıın bibin Almazın
Gildir-gildir göz yaşı.
Bibin ayrı söz tapmadı,
Elə "Ülvim!" "Ülvim!" — dedi, Bibinin göz
yaşları da qanlı idi...

1990

Hidayət. Qələmini qanına batıran şair : şeir // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S155.